The role of literary translation in the work process of Nakhichevan writers regard to learning the characteristic of Azerbaijani literary language

Mehriban Asadullayeva
Doctor of Philosophy in Philology, Associate Professor, Nakhichevan State University, Azerbaijan. E-mail: quliyeva.mehriban@list.ru
https://orcid.org/0000-0002-2640-5220

Abstract. Translations play an important role in the development of literary language and contribute to the enrichment of its lexical content. Translations of different periods are a useful source in terms of learning the literary features and spelling of that period. The translations have served as a bridge between the development of national cultures, the enrichment of national languages, and the popularity of the rich Western literature with its philosophical depth. Figurative translation began to develop widely from the 19th century in Azerbaijan. Special attention was paid to the understanding and literary expressions in the language of the translation of Mahammad Agha Shahtakhtli, Mahammad Taghi Sidgi, Eynali Bey Sultanov, Jalil Mammadguluzade, Mammad Said Ordubadi, Sheikh Mohammed Rasizadeh, Alakber Garib Nakhchivanli, Ali Sabri, Aziz Sharif the representatives of Nakhchivan literary atmosphere. The writers tried to keep the originality when they translated the works of classics.

Keywords: Nakhchivan, literary environment, Azerbaijan language, translation, literary language.

http://dx.doi.org/10.29228/edu.122
To cite this article: Asadullayeva M. (2020). The role of literary translation in the work process of Nakhichevan writers regard to learning the characteristic of Azerbaijani literary language. *Teaching of Azerbaijani Language and Literature.* V. 263, Issue I, pp. 27–40.
Article history: Received — 09.11.2019; Accepted — 14.03.2020

Azərbaycan ədəbi dilinin xüsusiyyətlərini öyrənmək baxımından Naxçıvanlı yazarların yaradıcılığında bədii tərcümənin rolu

Mehriban Əsədullayeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent, Naxçıvan Dövlət Universiteti, Azərbaycan.
E-mail: quliyeva.mehriban@list.ru
https://orcid.org/0000-0002-2640-5220

Xülasə. Tərcümə əsərləri ədəbi dilin inkişafında mühüm rol oynayaraq onun leksik tərkibinin zənginləşməsinə kömək edir. Müxtəlif dövrə aid tərcümələr müxtəlif xalqların ədəbiyyatını, dövrün tarixi-ictimai şəraitini, ədəbi dil xüsusiyyətlərini öyrənmək baxımından faydalı mənbə hesab edilir. Tərcümələr milli mədəniyyətin inkişafını, milli dillərin zənginləşməsini, həm də fəlsəfi dərinliyi ilə diqqəti cəlb edən Şərq ədəbiyyatının qərb dünyasına tanıdılmasında bir körpü rolu oynayan amil funksiyasını yerinə yetirmişdir. Bədii tərcümə Azərbaycanda XIX əsrdən geniş inkişaf etməyə başladı. Məhəmməd ağa Şahtaxtlı, Məhəmməd Tağı Sidqi, Eynəli bəy Sultanov, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Şeyx Məhəmməd Rasizadə, Ələkbər Qərib Naxçıvanlı, Əli Səbri, Əziz Şərifin tərcümə etdiyi əsərlərin dilindəki anlayışa və ədəbi ifadələrə xüsusi diqqət yetirilmişdir. Naxçıvan ədəbi mühitinin nümayəndələri klassiklərin əsərlərini tərcümə edərkən orijinallığı saxlamağa çalışmışdılar.
Açar sözlər: Naxçıvan, ədəbi mühit, Azərbaycan dili, tərcümə, bədii dil.

http://dx.doi.org/10.29228/edu.122
Məqaləyə istinad: Əsədullayeva M. (2020). Azərbaycan ədəbi dilinin xüsusiyyətlərini öyrənmək baxımından Naxçıvanlı yazarların yaradıcılığında bədii tərcümənin rolu. «Azərbaycan dili və ədəbiyyat tədrisi», № 1 (263), səh. 27–40.
Məqalə tarixçəsi: göndərilib — 09.11.2019; qəbul edilib — 14.03.2020

Giriş / *Introduction*

XIX əsrdə ilk dəfə olaraq, Azərbaycanın görkəmli ədibi A.Bakıxanov bədii tərcümənin inkişafına zəmin yaratdı. XX əsrin əvvəllərində zəngin təcrübə qazanan bədii tərcümə ilə məşğul olan ədiblərimiz bir-birindən maraqlı tərcümə əsərləri ilə Azərbaycanlı oxucuların zövqünü oxşadılar.

Tərcümə əsərləri ədəbi dilin inkişafında mühüm rol oynayaraq onun leksik tərkibinin zənginləşməsinə kömək edir. Müxtəlif dövrə aid tərcümələr həmin dövrün ədəbi dil xüsusiyyətlərini öyrənmək baxımından faydalı mənbə hesab edilir. Tərcümələr milli mədəniyyətlərin inkişafını, milli dillərin zənginləşməsini, həm də fəlsəfi dərinliyi ilə diqqəti cəlb edən zəngin Şərq ədəbiyyatının qərb dünyasına tanıdılmasında bir körpü rolu oynayan amil funksiyasını yerinə yetirmişdir. Bədii tərcümədə təşbeh, məcaz, kinayə, eyham, metafora ilə zəngin bir dildən istifadə edən hər bir yazıçı oxucunun ruhunu oxşamağı bacarmalıdır. O, həm məna dəqiqliyini, həm də üslub gözəlliyini qoruyub saxlamalıdır. Tərcümə ilə məşğul olan qələm sahiblərimiz zəngin söz ehtiyatına malik olmalı, tərcümədə obrazların mənəvi aləmini ən dəqiq nitq vahidləri ilə göstərməli, üslub orijinallığını, milli xüsusiyyətləri, eyni zamanda bədii əsərdə atalar sözü, məsəllər və idiomlar varsa, onları xüsusi məharətlə oxucuya təqdim etməyi bacarmalıdır.

Müzakirə / *Discussion*

XIX əsrin sonu, XX əsrin əvvəllərində Naxçıvan ədəbi mühiti nümayəndələrinin yaradıcılığında da tərcümə əsas yer tutmuşdur. Ədiblərimiz bədii tərcümə sahəsində etdikləri müxtəlif tərcümə nümunələri ilə özünə geniş miqyaslı oxucu qazanmaqla yanaşı, XX əsr Azərbaycan realist nəsrinin yenilənməsinə çox təsir etmişdir. Məhəmməd ağa Şahtaxtlı (1846-1931), Məhəmməd Tağı Sidqi (1854-1903), Eynəli bəy Sultanov (1866-1935), Cəlil Məmmədquluzadə (1869-1932), Məmməd Səid Ordubadi (1872-1950), Şeyx Məhəmməd Rasizadə (1878-1939), Ələkbər Qərib Naxçıvanlı (XIX əsrin 90-cı illərində – ?), Əli Səbri (1892-1983), Əziz Şərif (1895-1986) kimi ədiblərimiz tərcümə sahəsində qələmlərini sınamış, gözəl bədii nümunələr yaratmağa müvəffəq olmuşdular. Onların tərcümələrinin dilində anlaşılmaya və ədəbiliyə xüsusi fikir verilirdi. Bu tərcümələr ümumi aydınlığından əlavə, sadəliyi, danışıq dili üçün səciyyəvi söz və ifadələrin işlənməsi baxımından əhəmiyyətlidir. Yuxarıda adlarını çəkdiyimiz ədiblərimiz tərcümədə qəbul və təqdim olunan mətni, bədii əsərin təfərrüatlarına qədər dərk etməyi, onu orijinala çox yaxın şəkildə ikinci bir dilə çevirməyi bacarmışdılar.

M.Şahtaxtlı çoxcəhətli yaradıcılığı dövründə tərcümə sənəti ilə də yaxından məşğul olmuş, Şərq xalqlarının qiymətli sənət əsərlərinin Avropa və Rusiyada tanıdılması, təbliği istiqamətində böyük əmək sərf etmiş, bu peşənin nümayəndəsi,

sahibi olmaqla qürur duymuşdur. Məsələn, görkəmli maarifçi hələ XIX əsrdə yazdığı ilk məqalələrinin birində Mirzə Mehdixanın o dövr Azərbaycan və İran hökmdarı, görkəmli sərkərdə və dövlət xadimi Nadir şaha həsr olunmuş «Tarixi-Nadir» əsərindən, onun ədəbi və bədii xüsusiyyətlərindən bəhs edərkən əsərin məzmununun çox lazımlı keyfiyyətlərə malik olduğunu, ancaq qəzetin həcminin buna imkan vermədiyini təəssüflə qeyd edir, Mirzə Mehdixanın dərin və fəlsəfi düşüncələrinin oxucuya çatdırılmasında özünün ancaq sadə bir tərcüman olduğunu fəxrlə qeyd edirdi [Şahtaxtlı M. 2006, s.265]. Məlum olduğu kimi, böyük ziyalı ədib ömrünün çox hissəsini tərcüməçilik sənətinə həsr etmişdir. O, hələ 1882-93-cü illərdə İstanbulda işləyərkən farsca «Əxtər», fransızca «İstanbul» qəzetlərində, fransızca «Şərq ədəbiyyatı» jurnalında tərcümə nümunələrini nəşr etdirmiş, ondan sonra bu şəhərdə Beynəlxalq Ticarət Məhkəməsində Rusiyanın daimi nümayəndəsi kimi, həm də tərcüməçi sifətilə fəaliyyət göstərmiş, 1909-1912-ci illərdə Rusiyanın Türkiyədəki səfirliyində jurnalist-tərcüməçi vəzifəsində, daha sonra 1914-cü ildən 1917-ci ilin fevral ayınadək Rusiya Xarici İşlər Nazirliyində tərcüməçi ştatında çalışmışdır. M. Şahtaxtlı eyni zamanda Azərbaycan dilinə tərcümə sahəsində də mühüm xidmətlər göstərmişdir. Hələ 1920-ci ildə rus dilindən N.Nərimanovun «Maariflilər və xalq təsərrüfatını bərpa eləmək» məqaləsini sadə və anlaşıqlı tərzdə Azərbaycan dilinə tərcümə etmiş, Azərbaycan hərbi inqilab komitəsinin orqanı olan «Füqəra füyuzatı» həftəlik məcmuəsində nəşr etdirmişdir [«Füqəra füyuzatı» dərgisi, 1920, №125-27]. Tərcümədə dəqiqlik M.Şahtaxtlının hələ XIX əsrin 70-ci illərdəki publisistik fəaliyyətində də gözə çarpmaqdadır. Belə ki, həmin ildə «Tiflisskiy vestnik» qəzetində M. Şahtaxtlının çap olunmuş əlifba islahatı haqqında məqaləsi tərcümə edilərək «Ziya» qəzetində gecikməli şəkildə nəşr olunmuşdur. Senzor M. Axundov materialla tanış olarkən təhrifə yol verildiyini, orijinaldan kənara çıxıldığını müəyyən etmiş və bu yanlışlığın düzəldilməsini tələb etmişdir [Zeynalzadə A. 2006, s.168]. Görkəmli şahtaxtlışünas akademik İsa Həbibbəyli ədibin tərcümə əsərlərinin aşkar edilməsində böyük əmək sərf etmiş, bu qiymətli əsərləri elm ictimaiyyətinin istifadəsinə təqdim etmişdir. İsa Həbibbəyli ədibin axırıncı dəfə Türkiyədə çalışdığı dövrdə (1909-1912) Əhməd Muxtar paşanın «Anadoluda 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsinin tarixi» əsərini ruscaya uğurla tərcümə etməsindən [Военно-исторический сборник. 1913, с.224-280] bəhs edərkən yazmışdır: «Bu əsərin tərcüməsi barədə indiyədək elmi ədəbiyyatda heç bir məlumat verilməmişdir. Bu qiymətli memuar əsəri nümunəsi bir daha ədibin tərcüməçilik fəaliyyəti barədə ümumiləşdirmələr aparmağa imkan verir. M.Şahtaxtlı Azərbaycanda elmi-publisist ədəbiyyatın tərcüməsi ilə məşğul olan ilk müəlliflərdən biridir. Mövcud tərcümələri onun türk-müsəlman aləmini Rusiyada, habelə rus dili vasitəsilə dünyada tanıtmaq, dərk və qəbul etdirmək arzularının ifadəsidir. Bundan başqa, M.Şahtaxtlının tərcümə əsərləri orijinaldan

ən mükəmməl tərcüməyə də dəyərli örnəklərdir» [Həbibbəyli İ. 2008, s.37]. M.Şahtaxtlı tərcümə məsələlərində, xüsusilə Avropa sözlərinin tərcüməsində diqqətli olmağı tövsiyə edirdi: «Ruscadan türkcəyə əsərlər tərcümə edənlər bilirlər ki, rus dili bizim tərcüməmizdən çox zəngindir. Yüzlərcə, minlərcə Avropa dillərindən eynilə alınmış sözlər var ki, əvəzləri rus dilində olmadığı kimi bizim şərq dillərində dəxi yoxdur. Bunların hər birinin əvəzinə öz dillərində ruslar bir söz qoysaydılar, söz mənasını əldə edəməyəcək idi. Çünki bu mənaları vücuda gətirən Avropa millətlərinin, rusların şəriklik etmədikləri diriliyi və vüquatı olmuşdur. Ona görə bu sözləri Avropa sözü ilə istemal edib ləfzləri ilə bərabər mənalarını da öyrənirlər» [Şahtaxtlı M. 2006, s.224-225]. M.Şahtaxtlı tərcümə nümunələrinin dəyərləndirilməsi zamanı rus və Azərbaycan dillərinin bədii ifadə vasitələrinin yerli-yerində işlədilməsinə son dərəcə həssaslıqla yanaşmışdır. Onun həm ərəb-fars, həm də rus dilində etdiyi tərcümələr elmi xarakteri ilə də seçilirdi. «Türkcəmizi həqiqətdə türkcə etmək» adlı məqaləsində qeyd edir ki, «Farsı cəmlərini istemal edərək indiki dilimizin islahını isə yorur. Ərəb və fars kəlmələrini yalnız kəndi türk qaydamızla cəmləndirməliyiz. Yəni daima və istisnasız olaraq «ədyan» yerinə «dinlər», «su-xənvəran» yerinə «suxənvərlər» deməliyiz. Bəzi ərəb cəm ilə işlənilən sözlər dilimizə məxsus bir məna almışlar. Məsələn: «alim» kəlməsi «fazil» – elmi çox olan adam mənasına istemal olunur. «Üləma» kəlməsi isə osmanlı türkcəsində müsəlman ruhani sinfinə mütəəliq olan adama osmanlılar «üləmadandır» deyirlər [Şahtaxtlı M. 2006, s.226]. M.Şahtaxtlı «Kiçik romanlar haqqında» yazdığı məqalədə ədəbi tərcüməyə yüksək qiymət verərək yazırdı ki, rus və ya Avropa romanları oxuyan yazıçılar tərcümədən başladıqlarında onlar Avropa usta ədiblərinin yazmaq üsullarını öyrənəcək, onların sirlərinə vaqif olacaq və onların zehn və fikirlərindən istifadə edəcək olurlar.

Məhəmməd Tağı Sidqinin zəngin, çoxşaxəli yaradıcılığı XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda maarifin, ədəbiyyatın, mədəniyyətin inkişafında mühüm rol oynamışdır. İsa Həbibbəylinin sözləri ilə desək: «Maarifçilik hərəkatının və maarifçi ədəbiyyatın görkəmli nümayəndəsi» – «Böyük maarifçi ədib və pedaqoq Məhəmməd Tağı Sidqi maarifçilik hərəkatı və maarifçi ədəbiyyat istiqamətlərinin hər ikisində «keçid dövrü» nün lideridir. XIX əsrin son 25 ilində və XX əsrin əvvəllərində həm maarifçilik hərəkatı, həm də maarifçi realist ədəbiyyatı baxımından Məhəmməd Tağı Sidqi səviyyəsində xidmət göstərən görkəmli ziyalı göstərmək çətindir. Sidqi pedaqoq olduğu daha çox gənc nəslin təlim-tərbiyəsinə müsbət təsir bağışlayan əsərlər yazmışdır. Uşaq nəsrinin ilk mükəmməl nümunələri, ədəbi-fəlsəfi traktat, poeziya və tərcümə materialları Azərbaycanda maarifçi ədəbiyyatın inkişafında mühüm rol oynamışdır» [Qədimov Ə. 2010, s.262]. M.T.Sidqi Əhməd bəy Ağayevin məqalələrini tərcümə etmişdir. O, Əhməd bəy Ağayevin milli əqidəsinə və qələminə yaxından bələd idi və onunla məktublaşırdı. Hətta Ə. Ağayevin Şərq mətbuatında dərc olunan bəzi məqalələri

Sidqi tərəfindən farscaya tərcümə olunub redaksiyalara göndərilirdi [Qədimov Ə. 2010, s.441]. Ə.Ağayev panislamizmin ictimai və siyasi köklərini açan bu məqalənin Şərq mətbuatında da çap olunması və bütün müsəlman aləminə çatdırılması üçün M.T.Sidqidən onu tərcümə edib «Sürəyya» qəzetinə göndərməsini xahiş etmişdir. Ə.Ağayev yazmışdır ki, «Kaspi» idarəsinə hər nə yazsam, ya türkcə, ya farsca, tərcümə edərəm və Əlimərdan bəyə də deyərəm ki, hər sətrinə üç qəpik sizə həqqül-qələm versin. Dübarə kağız yazıb razılıq elədim... «Qaspi» ruznaməsinin 113-cü nömrəsində dərc olunubdu.

Ə.Ağayevin tərcümə olunmasını xahiş etdiyi bu məqaləsini Sidqi rus dilini mükəmməl bilmədiyi üçün Mirzə Cəlildən türkcəyə çevirməsini xahiş etmiş və onun türkcəyə tərcüməsi əsasında məqaləni farscaya çevirib «Pərvəriş» qəzetinin redaksiyasına göndərmişdir. Bu haqda Sidqi dostu Qurbanəli Şərifzadəyə göndərdiyi 25 avqust 1900-cü il tarixli məktubunda yazırdı: «Bu günlər bir məqalə ki, cənabi-müstətab Əhməd bəy Ağayev «İttihadi-müslimin» adı ilə yazmışdı və ruscadan türkcəyə məxdumum Mirzə Cəlil tərcümə etmişdi, türkcədən farscaya tərcümə edib «Pərvəriş» idarəsinə göndərəcəyəm» [Qədimov Ə. 2010, s.454]. Sidqi də özünün maarifçiliklə bağlı fikirlərini və tənqidi mülahizələrini bildirmək üçün məsnəvi formasını daha əlverişli forma hesab etmişdir. Bu isə XIX əsr Naxçıvan ədəbi mühitində Sidqinin şəxsində klassik poetik formalarda yeni məzmun axtarışlarının sənətə gətirilməsi idi. Əsərin fars dilində yazılması isə onun geniş şəkildə təbliği ilə əlaqədar idi. Belə ki, XIX əsrdə fars dili Azərbaycan mühitində, əsasən, anlaşılırdı, lakin türk dili Şərq ölkələri müsəlmanlarının hamısı tərəfindən anlaşılmırdı. Məhz bunu nəzərə alan Sidqi öz mətləbini bütün müsəlman Şərqinə çatdırmaq üçün əsəri fars dilində qələmə almağı daha münasib bilmişdir [Qədimov Ə. 2010, s.368].

Yazıçı-publisist Eynəli bəy Sultanov da müxtəlif vaxtlarda ədəbi tərcümə ilə məşğul olmuşdur. Tərcümə sənətində tərcümə olunacaq əsərin seçilməsi də mühüm amillərdən biridir. Bu baxımdan Eynəli bəy Sultanov tərcümə üçün müraciət etdiyi elmi-publisistik və ya bədii əsərlər dövrün nəbzini tutan, mövzusunun aktuallığı ilə seçilən, öz dövrü ilə səsləşən ədəbi nümunələr olmuşdur. Təhsil illə-rində o, tərcümə məşğələlərində də fərqlənmişdir. Belə ki, Eynəli Sultanov fransız, latın, yunan dillərindən rus dilinə, yaxud rus dilindən həmin dillərə tərcümə məşğələləri zamanı xüsusi qabiliyyət nümayiş etdirmişdir. 24 fevral 1884-cü il tarixdə latın dilindən təklif olunan idiomatik ifadələri rus dilinə düzgün tərcümə edən 4 nəfər gimnazistin arasında onun da adı yazılmışdır. 29 aprel 1884-cü il tarixdə o, rus dilindən imtahan zamanı Nikolay Qoqolun «Köhnə dünya mülkədarları» əsərinin məzmununu danışmış, nəzərdə tutulan parçanı eyni zamanda fransız, latın və yunan dillərinə tərcümə etmişdir [Sultanov E. 2017, s.13]. İmtahanda «əla» qiymət alan olmamış, biliyini sınaqdan çıxaran 16 nəfərdən yalnız Eynəli bəy Sultanovun cavabları tələbkar komissiya tərəfindən

«yaxşı» ilə qiymətləndirilmişdir. 19 may 1886-cı il tarixdə suallarının tərkibində tərcüməyə aid tapşırıqları olan latın dili imtahanında «əla» qiymət alan iki nəfər müdavimdən biri Eynəli bəy Sultanov idi. Mirzə Fətəli Axundzadənin «Molla İbrahimxəlil kimyagər» və «Hacı Qara» komediyalarını, Sədinin «Gülüstan» kitabından nümunələri və Baba Tahirin «Allah insan məhkəməsi qarşısında» adlı ictimai ruhlu məsnəvisini rus dilinə, M. Qorkinin «Həyatdan lövhələr», V.Mayakovskinin Azərbaycanda olduğu zaman yazdığı «Bakı» şeiri «Zarya Vostoka» qəzetində dərc olunur. Qocaman yazıçı dərhal həmin şeiri Azərbaycan dilinə tərcümə edərək «Dan ulduzu» məcmuəsinin 2-ci nömrəsində çap etdirir. O, tərcüməçilik fəaliyyətini sonralar da davam etdirmişdir. M.Qorkinin «Həyatdan lövhələr», M.F.Axundovun «Hacı Qara»,«Molla İbrahimxəlil kimyagər», İ.Baxmanovun «Pedaqoji laboratoriyasında» və s. əsərlərini tərcümə etmişdir. M.F.Axundovun hər iki əsərinin rus dilinə edilən tərcüməsi o zamankı mətbuatda müsbət qarşılanmış və qeyd edilmişdir ki, hər iki əsər («Kimyagər» və «Hacı Qara») M.F.Axundova layiq, təmiz rus dilindədir. Tərcüməçi Axundovun ruhunu saxlamağa müvəffəq olmuşdur [Maqsudov İ. 2016, s.63]. Eynəli bəy Sultanov İvan Krılovun «Tülkü və üzüm» təmsilini də yüksək səviyyədə Azərbaycan dilinə tərcümə etmişdir. Eynəli bəy Sultanov çalışmışdır ki, rus klassik poeziyanın mahiyyətini, onda öz əksini tapmış koloriti, digər milli və regional xüsusiyyətlərini azərbaycanlı oxucuya bütövlükdə çatdırsın [Sultanov E. 2017, s.14]. Hafiz Şirazinin divanından seçmələr, Şeyx Sədinin «Gülüstan» kitabından nümunələr və Baba Tahirin «Allah insan məhkəməsi qarşısında» adlı ictimai ruhlu məsnəvisi də Eynəli Sultanovun tərcüməçilik xidmətləri sayəsində rus oxucusuna çatdırılmışdır [Sultanov E. 2017, s.14].

Eynəli Sultanov «Baba Tahir» poemasını farscadan tərcümə etmişdir. O, mənzum poemanın bədii tərcüməsində qeyd edir ki, tanrını mühakimə edən insan bütün eybəcərlikləri, insan qəlbindəki xəbis niyyətləri, çirkin ehtirasları, bütün çirkinlikləri tanrıda görərək məhkəmə günü ondan haqq-hesab tələb edir və «Все зло в мире от тебя лиш одного, но, ради страха, я не могу возвысить свой голос...» – deyirdi. Bütün səbəblərini tanrıda axtaran üsyankar insan məhkəmə günündə tanrını ittiham edir. Tərcümə aşağıdakı müraciətlə, ifadələrlə başlayır:

«Dərkedilməz! Sən qarışqanın döş qəfəsini genişləndirmədən oraya sərhədsiz kainatını kiçiltməyərək sığdırmağa qadirsən! Şərqin və qərbin bütün dağlarını dəniz balıqqulağında gizlətməyə qadirsən Sən! Sənin qüdrətin ilə küləklər bitki aləmini qidalandırır...» [Sultanov E. 2017, s.36]

Tərcümə işinə yüksək bir sənət kimi baxan, əlinə aldığı hər bir əsəri böyük bir ilhamla, al-əlvan bədii yaradıcılıq ehtirası ilə tərcümə edən bu istedadlı yazıçı qısa ömrü ərzində dünya klassiklərinin bəzilərinin əsərlərinin Azərbaycana həqiqətən klassik tərcümələrini vermiş, onları bütün əzəməti ilə oxucularının zövqünü oxşaya bilmişdir. «Baba-Tahir» poeması E.Sultanovun tərcüməsində gözəl

əsərlərdən birdir. Əsəri farscadan tərcümə etmək o qədər də asan deyildir. Lakin ədəbi mühitin görkəmli nümayəndəsi zəhmətə qatlaşaraq əsəri tərcümə edə bilmişdir. Bəzi dil və istilah xüsusiyyətləri nəzərə alınmazsa, E.Sultanovun tərcüməçilik fəaliyyəti diqqətəlayiqdir.

Eynəli Sultanov 1908-ci ildə «Zakavkazye» qəzetində qələmə aldığı məqaləsində Baba-Tahirin müctəhid-alim kimi tanınmasını qeyd edərək yazır: Baba-Tahir həmçinin lur dilində bir çox şeirin müəllifi sayılır. Onlardan birini tanış lütfkar dərvişin köməyi ilə nəsr tərcümədə təqdim edirəm: Dərkedilməz! Yalnız Sənə xidmət etməyi bizə əmr edirsən, yoldan çıxaran şeytana isə insan qəlbinin bütöv guşələrinə azad girmək imkanı verirsən.

Aydın görünür ki, orijinalda olduğu kimi tərcümə olunan bu məqalədə ədib qəliz ərəb-fars mənşəli sözlərin yerinə mənası aydın başa düşülən sözlərdən istifadə edərək ana dilinin sintaktik normasına uyğun qaydada cümlələr qurmuşdur.

Ədibin «Tatar atalar sözləri» adlı məqaləsində olan atalar sözlərinin tərcüməsi də maraqlıdır. Son dərəcədə münasib, anlaşılan ifadələr seçmək və onu öz oxucusuna çatdırmaq istəyən Eynəli Sultanov bədii dilin qüdrətindən istifadə edərək tərcüməni aşağıdakı kimi etmişdir:

Кошка – это лев, когда ловит мышь, но сама она обращается в мышь всхватке с барсом. / *Tərcüməsi:* Siçanı tutanda pişik aslandı, lakin bəbirlə döyüşdə özü siçana dönür.

Когда нет какой возможности спастись бегством, тогда рука невольно хватается за острый меч. / *Tərcüməsi:* Qaçmaqla xilas olmağa heç bir imkan olmayanda, əl qeyri-ixtiyarı iti qılıncdan yapışar.

Кто стремится в бой, тот играет своей собственной кровью, а кто обращается в бегство, – играет кровью ратников. / *Tərcüməsi:* Döyüşə can atan öz qanı ilə oynayır, kim ki qaçmağa üz tutur – əsgərlərin qanı ilə oynayır.

Огромное тело нельзя считать доблестью; в день битвы идёт в дело поджарый конь, а не упитанный вол. / *Tərcüməsi:* Çox böyük bədən şücaət sayıla bilməz; döyüş günü arıq-qıvraq at işə yarayır, kök öküz yox.

Tərcümə işi xalqlar arasında ədəbi-mədəni əlaqələrin, azad fikrin ifadəsinin üzə çıxmasına imkan verirdi. Görkəmli yazıçı Cəlil Məmmədquluzadə də bu sahədə qələmini sınayaraq uğurlu tərcümə nümunələri yaratmışdır. «Şərqi-Rus» qəzetində L.N.Tolstoyun «Zəhmət, ölüm və naxoşluq» adlı hekayə-əfsanəsi C.Məmmədquluzadənin tərcüməsində [1904, №7] işıq üzü görmüşdür. Əsər öz ictimai-siyasi əhəmiyyəti ilə yanaşı bədii cəhətdən də diqqəti cəlb edir. Hekayənin Azərbaycan dilində xüsusi bir təravətlə səslənməsi, canlı danışıq dilinə yaxınlığı, sadə və hamı üçün anlaşıqlı olması Mirzə Cəlili mahir bir tərcüməçi, eyni zamanda L.N.Tolstoy yaradıcılığının ruhunu yaxından duyan bir sənətkar kimi tanıtmışdır. C.Məmmədquluzadənin «Şərqi-Rus»da tərcüməçilik fəaliyyəti «Zəhmət, ölüm və

naxoşluq» hekayəsindən sonra ədib «Xanzadə» təxəllüsü ilə rus dilndə yazıb yaradan senzor Kişmişovun «Arvad» hekayəsini də müvəffəqiyyətlə dilimizə tərcümə etmişdir. Bu əsər qəzetin 30 may, 2 iyun 1904-cü il tarixli 63 və 64-cü nömrələrində işıq üzü görmüşdür. Hekayənin tərcüməsi sadə və duzlu xalq ifadələri ilə zəngindir. Ədəbi dil ilə xalq dili arasında səddi aradan qaldıran C. Məmmədquluzadənin oxuculara tanış yazı üslubu, sərbəst və usta təhkiyəçilik qabiliyyəti bu əsərin tərcüməsində xüsusi ilə nəzərə çarpır [Novruzov Ş. 1988, s.158].

Orijinalda: Среди индейцев Южной Америки существует следующая легенда: Бог сотворил людей, говорят они, сначала так, что им не нужно было трудиться, им не нужны были ни жилище, ни одежда, ни пища, и жили все до ста лет и не знали никаких болезней.

Tərcümədə: Cənubi Amerikanın hind tayfasının içində belə bir rəvayət var: Allah-təala əvvəl insanı o yolda xəlq eləmişdi ki, heç bir kəsin yeməyə, içməyə, libasa və evə ehtiyacı yox idi. Belə ki, nə zəhmət çəkmək lazım idi, nə bir şeyin fikrini eləmək.Və bununla bərabər insan yüz il ömür eləyib heç bir mənzərə mübtəla olmazdı [Məmmədquluzadə C. 2004, s.639].

Orijinalda: И опять бог оставил людей, но когда вернулся посмотреть, как они живут теперь, то увидал, что с тех пор, как стали они подвержены болезням, жизнь людей стала еще хуже. Те самые болезни, которые, по мысли бога, должны были соединить людей, еще более разъединили их .

Tərcümədə: Bir qədər keçəndən sonra genə xaliqi-aləm istədi yaratdığı məxluqa nəzər salıb görsün ki, necə zindəganlıq edirlər və gördü ki, adamların bir-biri ilə rəftarı irəlikindən dəxi də pis, fənadır. Çünki onlar hərçənd cəmiyyət ilə zəhmət çəkirdilər, amma dəstə-dəstə olmuşdular və hər dəstə səy edirdi o biri dəstə gördüyü işə mane olub, qoymasın onun işi hüsni-nəticə bağışlasın [Məmmədquluzadə C. 2004, s.639].

Göründüyü kimi C.Məmmədquluzadənin tərcümə etdiyi hekayənin dilinin ümumi aydınlığından əlavə, sadəliyi, danışıq dili üçün səciyyəvi söz və ifadələrin işlənməsi baxımından maraqlıdır.

Ələkbər Qəribin (Abbasov) tərcüməçilik fəaliyyəti 1920-1930-cu illərdə daha ardıcıl və əhatəli xarakter daşımışdır. 1927-ci ilin sonlarından etibarən Bakıda nəşriyyat sistemində çalışan ədib həm müxtəlif bədii nümunələri məharətlə Azərbaycan dilinə çevirərək nəşr etdirmiş, həm də bir çox tərcümə kitablarının redaktoru olmuşdur. İyirminci illərdə o, M.Y.Lermontovun «Zəmanəmizin qəhrəmanı» əsərini tərcümə etmiş, bu tərcümə haqqında o zamanlar hələ gənc olan M. Arif «İnqilab və mədəniyyət» jurnalında [1928, № 5] resenziya çap etdirmişdir. Mərhum ədəbiyyatşünasımız Ə.Şərif öz xatirələrində vaxtilə Azərnəşrdə Ələkbər Naxçıvanlı ilə birgə Qorkinin «Ana» romanının tərcüməsi üzərində birgə çalışmaqları barədə söz açır. Bu fakt Ə.Naxçıvanlının bacarıqlı bir tərcüməçi

olduğunu sübut edir [Saraçlı M. 2007, s.47]. Ələkbər Naxçıvanlı 1912-ci ildə rus sentimentalisti N.M. Karamzinin (1766-1826) «Bədbəxt Liza» əsərini dilimizə tərcümə etmiş və həmin ildə Bakıda ayrıca kitabça kimi nəşr etdirmişdir. Ələkbər Naxçıvanlı «Bədbəxt Liza» əsərini tərcümə edərkən orijinalın ruhunu saxlamağa çalışmış, rus dilindəki söz və ifadələrin Azərbaycan dilindəki paralelini, qarşılığını dəqiqliyi ilə yerli-yerində işlədərək üslub xüsusiyyətlərini qoruyub saxlamışdır. Ə.Qəribin diqqətəlayiq bədii tərcümələrindən biri rus ədibi M.Y.Lermontovun 258 səhifədən ibarət olan «Zəmanəmizin qəhrəmanı» romanıdır. Kitabın redaktoru tanınmış şair-tərcüməçi Əhməd Cavad idi. Tərcüməşünaslıq üzrə tanınmış mütəxəssis olan Lyudmila Səmədova Ələkbər Qəribin rus klassikinin əsərinin tərcüməsini yüksək qiymətləndirmişdir: «Sadəliyi və təbiiliyi ilə seçilən tərcümə orijinalın ruhunu özündə tam ifadə edir. Azərbaycan dilinin ifadə imkanlarından bacarıqla istifadə edən mütərcim öz dövrünə görə gözəl tərcümə əsəri yarada bilmişdir.

Orijinalda: Но скоро по смерти его жена и дочь обедняли.

Burada deyilir ki, onun ölümündən sonra arvadı və qızı yoxsullaşdılar, bədbəxt oldular.

Tərcümədə: Bain həmə, neçə-neçə səbəblərə binaən onun vəfatından zövcəsi, sevgili qızı biçiz və fəğir qalmışdılar.

Professor Hüseyn Həşimovun məqaləsindən götürülən bu tərcümədə müəllifin də qeyd etdiyi kimi «neçə-neçə» səbəblərə görə ifadəsi artıqdır.

Ələkbər Naxçıvanlının tərcüməsində orijinalın məzmununa da maksimal dərəcədə sadiqlik duyulur. Böyük rus klassikinin fikir və hisslərini Azərbaycan dilinə çevirən mütərcim orijinaldakı obrazları, metaforaları, üslubi xüsusiyyətləri qoruyub saxlamağa səy göstərmiş, rus ifadə və bədii təsvir vasitələrinin azərbaycanca analoqlarını tapmağa çalışmışdır. Bacarıqlı tərcüməçi orijinalın məzmunu ilə bir sırada onun üslubunu, dil xüsusiyyətlərini, ritmini, intonasiyasını, ifadələrin konstruktiv xüsusiyyətlərini və s. verməyə də müvəffəq olmuşdur. Ə.Qəribin tərcüməsini oxuduqca biz yüksək estetik zövqə malik olan, rus klassik ədəbiyyatını dərindən bilən, onun tarixi əhəmiyyətini və milli xüsusiyyətlərini həssaslıqla duyan bir tərcüməçi ilə qarşılaşırıq [Səmədova L. 1990, s.139-140, s.194-218].

Ə.Qərib 1927-ci ilin ikinci yarısında artıq Tiflisdən köçərək yaradıcılıq fəaliyyətini Bakıda davam etdirirdi. Həmin ildən etibarən təxminən on il müddətində onun bir sıra tərcümələri nəşr olunduğu kimi, çoxsaylı tərcümə kitablarına redaktorluğu da bəllidir. Rus, alman, fransız, ingilis və s. xalqların ədəbiyyatlarının E.Zolya, C.London, A.Barbüs, A.S.Puşkin, M.Y.Lermontov, N.V.Qoqol, İ.S.Turgenev, A.P.Çexov, M.Qorki və digər məşhur simalarının müxtəlif əsərlərinin dilimizə Ə.Haqverdiyev, C.Cabbarlı, Ə.Cavad, Ə.Şərif və başqa tanınmış mütərcimlər tərəfindən edilmiş tərcümələrinin Bakıda Azərnəşr

tərəfindən məhz Ə.Qəribin redaktorluğu ilə çap edilməsi də onun yetkin ədib, kamil mütəxəssis olmasından soraq verir. 1920-1930-cu illərdə Ələkbər Qərib ictimai-siyasi xarakterli bəzi əsərləri də rus dilindən məharətlə tərcümə etmişdir. Xüsusən bir sıra rəsmi materialların tərcüməsinin Ə.Qəribə həvalə edilməsi mütərcimin bacarıq və məsuliyyətinə olan etimadın ifadəsi idi [Həşimli H. 2016, s.3-9].

Əli Səbri ədəbiyyat tariximizə naşir, publisist, tənqidçi, eyni zamanda tərcüməçi kimi də daxil olmuşdur. Ə. Səbrinin yaradıcılığı çoxşaxəlidir. Hər şeydən əvvəl, qeyd edək ki, Ə.Səbri mahir bir tərcüməçi olmuş, müxtəlif vaxtlarda L.N. Tolstoy, İ.S.Turgenev, A.P.Çexov, B.Şekspir, R.Taqor və başqa yazıçıların bir sıra əsərlərini, ayrı-ayrı elmi, siyasi monoqrafiyaları Azərbaycan dilinə tərcümə etmişdir. Bundan əlavə, M.S.Ordubadi, S. Şamilov və başqa Azərbaycan yazıçılarının bəzi əsərlərinin rus dilinə tərcüməsi də Ə.Səbriyə məxsusdur. Ə.Səbrinin bədii tərcümə sahəsindəki ilk işi məşhur rus yazıçısı L.N.Tolstoyun hekayələrinin dilimizə çevrilməsi ilə bağlıdır. Yazıçının xatirələrindən oxuyuruq ki, onu bu işə həvəsləndirən müəllimi Firudin bəy Köçərli olmuşdur. 1912-ci ildə hələ Qori seminariyasının tələbəsi ikən gənc Əli L.N.Tolstoyun dörd hekayəsini Azərbaycan dilinə tərcümə etmiş, onun bu tərcümələrini F.Köçərli müsbət qiymətləndirmişdir. 1912-ci ildə həyata keçirilmiş bu tərcümə barədə ədəbiyyatşünas Alməmməd Alməmmədov belə yazır. «Həmin ildə Əli Səbri Qasımov yazıçının «İlyas», «Fransuaza», «Kareni Vasilyeviçin sərgüzəşdi», «Fəhlə Yemelyan və boş baraban» əsərlərini tərcümə edərək «Dörd hekayə» adı ilə Orucov qardaşlarının mətbəəsində çap etdirmişdir. Bu kitab Lev Tolstoyun o vaxtadək Azərbaycan dilində nəşr olunan kitablarının həcmi etibarı ilə ən böyüyü idi. Bu tərcümənin uğurundan ruhlanan Ə.Səbri fəaliyyətini davam etdirmiş, sonraki illərdə bu sahə ilə daha ciddi məşğul olmuş, yeni-yeni tərcümələrini oxuculara ünvanlamışdır. R.Taqorun «Fəlakət», P.P.Verşinqoranın «Təmiz vicdanlı insanlar» adlı kitabları, «Gürcü hekayələri» adlı məcmuə, V.Şekspirin «Şıltaq qızın yumşalması» pyesi və s. Əli Səbrinin geniş tərcümə yaradıcılığından xəbər verir [Həşimli H. 2007, s.14-15].

XX əsr Naxçıvan ədəbi mühitinin görkəmli şəxsiyyətlərindən biri də filologiya üzrə elmlər doktoru, professor, Əməkdar elm xadimi Əziz Şərifdir. Bədii tərcümə sahəsində Ə. Şərifin əməyi əvəz olunmazdır. Çünki ədəbiyyatşünas alim bir neçə dili mükəmməl bilirdi. Bu isə ona müxtəlif xalqların ədəbiyyatını orijinaldan oxumaq şansı vermişdir. Həm də bu xalqaların ən yaxşı ədəbi-bədii nümunələrini tərcümə edib yaymaq imkanı qazandırmışdır. Qoqolun «Evlənmə» komediyası, Şillerin «Məkr və Məhəbbət» dramı, Qorkinin «Ana» romanı, «Düşmənlər» pyesi, A. Fadeyevin «Tarmar» əsərlərinin Azərbaycan dilinə tərcüməsi də məhz ona məxsusdur. Azərbaycan dilindən rus dilinə tərcüməyə gəlincə ilk növbədə qəhrəmanlıq dastanımız olan «Koroğlu» dastanının tərcüməsinin Ə. Şərifə məxsus

olduğunu qeyd etmək gərəkdir. XX əsrin 30-cu illərindən başlayaraq M.F.Axundov, N.Vəzirov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev irsinin rus dilinə tərcüməsi ilə məşğul olmuşdur. Ə.Şərif bu klassiklərin əsərlərini dəfələrlə çap etdirməklə yanaşı, bu əsərlərə yazdığı dərin məzmunlu elmi müqəddimələri və şərhləri ilə ədəbiyyatımızın rus dilli oxucuları arasında geniş şəkildə təbliğ olunması istiqamətində misilsiz xidmətlər göstərmişdir. Bu onun olduqca səliqəli, yazıçının üslubunu saxlamaqla, tərcüməni dəqiq, həm də bədii cəhətdən ifadəli etməsi sayəsində baş tutmuşdur. Sovet dönəmində SSRİ EA Dünya Ədəbiyyatı İnstitutunda hazırlanan Sovet ədəbiyyatının altı cildliyinin, dünya ədəbiyyatının on cildliyinin yaranmasında Ə.Şərif həm müəllif, həm də resenziyaçı kimi xüsusi rol oynamışdır [Kazımova F. 2015, s.59]. Tərcümə işi ilə mütəmadi və ciddi şəkildə məşğul olan Ə.Şərifin bu sahə ilə bağlı maraqlı nəzəri fikirləri var idi. Məsələn, 1967-ci ildə «Ədəbiyyat və incəsənət» qəzeti bədii tərcümə problemi ilə bağlı geniş bir müzakirə açır. Bu məsələ ilə bağlı alimlər, yazıçılar, eyni zamanda oxucular çıxış edərək münasibətlərini bildirirlər. Müzakirə alimin «Bədii tərcümənin bəzi məsələlərinə dair» [Şərif Ə. 1967] məqaləsi ilə açılır. Tərcümə sahəsində mükəmməl təcrübəyə sahib olan alim məqalədə bədii tərcümənin mühüm xüsusiyyətlərindən, tərcümənin texnikasından, bu sahədə kadrların necə hazırlanmasından söz açmışdır. Müzakirə iki ay davam etdikdən sonra müzakirəyə yekun vuran da məhz Ə. Şərif olmuşdur. O, «Söhbət ciddi oldu» adlı məqaləsini yazaraq «bədii əsərin tərcüməsi bədii olmalıdır» fikrini qətiyyətlə irəli sürmüşdür [Kazımova F. 2015, s.60].

Əsərin tərcüməsinin bədii olmasını təmin etməyin yollarını axtaran ədib ilk növbədə tərcüməçidən bədii istedad, sənətkarlıq tələb edirdi. O, eyni zamanda tərcümə olunacaq əsərin dilini mükəmməl bilməyi vacib sayırdı. Tərcüməçi-alim dil bilməyə-bilməyə 20-30 dildən tərcümə edən şairləri nəzərdə tutaraq yazırdı: «Söz yox ki, belə şair özü-özlüyündə istedadlı sənətkar olsa da yaxşı əsərlər yazsa da, bilmədiyi 20-30 dildən çevirdiyi şeirləri demirəm-yüksək, demirəm-lazımi və layiqli, heç olmazsa dözüləsi bir səviyyədə yarada bilməz» [Şərif Ə. 1967]. Tərcümə işində olan çatışmazlıqların səbəbini axtaran Əziz Şərif ən böyük nöqsanı tərcüməçi kadrların azlığında görürdü. Müəllif sətri tərcüməyə yüksək qiymət verərək göstərirdi ki, hər hansı bir dil vasitəsilə edilən tərcümədən bu əhəmiyyətlidir. O yazırdı: «Füzulinin ruscaya çevrilmiş hər hansı bir qəzəli həmin tərcümədən başqa bir dilə çevrilsə, bu təzə tərcümədə Füzulidən nə qalar? Demək olar ki, heç nə!.. Habelə əcnəbi dildəki bir əsəri rusca tərcüməsindən azəri dilinə çevirəndə demək olar ki, orijinaldan çox uzaq, təzə bir əsər meydana gəlir» [Şərif Ə. 1967].

Ə. Şərif sətri tərcümənin bir sıra cəhətlərini qeyd edərək göstərmişdir ki, Nizamidən tutmuş Sabirə qədərki klassik Azərbaycan şeiri, sözün əsl mənasında, hələ dünya mədəniyyətinin malı olmamışdır. Buna da səbəb əsərlərin orijinaldan

yox, rusca tərcümədən çevrilməsidir. Mənalı adların tərcüməsi məsələsində müəllifin fikri daha məntiqli və qəbul olunandır. Müzakirə iştirakçısı, tərcüməçi Siyavuş Məmmədzadə «Danabaş», «Qapazlı kəndi» və s. adların tərcümə edilməsini təklif edirdi. Ə. Şərif ona cavab olaraq yazırdı: «Bu təklif bəzi hallarda müsbət nəticə verə bilsə də, ümumi şəkildə ciddi etiraz oyadır [Şərif Ə. «Dan yıldızı». 1927, №-12, s.11-13]. Şəxsən mən, klassik ədəbiyyatımızda rast gəldiyimiz yer, kənd, şəhər, adam adlarını tərcümə etmək işinin tərəfdarı deyiləm. Məsələn, Ə. Haqverdiyevin məşhur «Dəccəlabada» şəhərini ruscaya çevirsən də heç bir məna verməz. Cəlil Məmmədquluzadənin «Qapazlı kəndi»ni isə təklif edildiyi kimi vermək, məncə böyük cəsarət istər. Şəxsən mən bu cəsarəti özümdə hiss etmirəm. «Qurbağalı» kəndini rusca «selo kva-kva» adlandırmaq heç cür olmazdı» [Şərif Ə. 1967]. Göründüyü kimi, Ə. Şərif bədii əsəri tərcümə edərkən sənətkar qarşısına 2 şərt qoyur: birincisi-əsərin məzmun və mündəricəsini olduğu kimi oxucuya çatdirmaq, ikincisi-əsərin milli xüsusiyyətini, bədii ruhunu saxlamaq. Müəllif ikinci şərti belə izah edirdi: «Əsəri elə tərcümə etmək lazımdır ki, oxucu onun hansı xalqa məxsus olduğunu dərhal anlasın». Ə.Şərif 1926-1938 ci illər arasında «M.F.Axundzadə» [Məmmədov N. 1965], «Mirzə Fətəli Axundov və Aleksandr Puskin»,«M.F.Axundovun bədii yaradıcılığı» [Möhtəmadi N. 1988], «Axundovun Puşkin haqqındakı poeması» [Mustafayev Ə. 1967] və s. əsərlərini rus və Azərbaycan dillərində nəşr etdirmişdir [Kazımova F. 2015, s.160]. Ə.Şərifin tərcümədəki misilsiz və əvəzolunmaz yaradıcılığından bəhs edən xalq yazıçısı Mirzə İbrahimov yazırdı: «Əziz Şərifin ədəbiyyat və mədəniyyətimiz qarşısında xidmətləri böyükdür. O, nəinki bizim böyük realistlərin, bu günkü görkəmli yazıçıların əsərlərini, roman və hekayələrini rus dilinə tərcümə edərək Moskva nəşriyyatları vasitəsi ilə çox millətli və çoxmilyonlu sovet oxucusuna çatdırmış, həm də bizim oxucuları rus ədəbiyyatının Qoqol («Evlənmək» piyesi), Maksim Qorki («Ana» romanı), Fadeyev («Tarmar» romanı) kimi böyük klassikləri ilə də tanış etmişdir. Ə.Şərif bütün fəaliyyətində olduğu kimi, tərcümə işində də son dərəcə dəqiqdir. O, olduqca səliqəlidir.Yazıçının üslubunu saxlamağa, tərcüməsi çətin olan ifadə və sözlərin müvafiq əvəzliklərini tapmağa çalışır. Tərcümənin həm dəqiq, həm də bədii cəhətdən ifadəli çıxması üçün əlindən gələni əsirgəmir. Mən inanıram ki, bizim istedadlı ədəbi gənclik bu gözəl keyfiyyətləri Ə.Şərifdən öyrənsə, mənimsəsə, dağı-dağ üstə qoyar» [İbrahimov M. 1970, s.201].

Nəticə / *Conclusion*

Ədib tərcümələrində rus dilini hərfən əks etdirməyə deyil, onda sözləri ana dili duyğusu ilə əks etdirməyə çalışmışdır. İlk əsərlərinin dilində ərəb-fars dillərinə məxsus söz və tərkiblər, geniş oxucu kütləsi üçün anlaşılmayan sözlər çoxluq təşkil etsə də, rus klassiklərinin əsərlərindən tərcüməyə başladıqdan sonra onun

dilində sadəlik, xalq dilinə məxsus ifadələr daha geniş əks olunmağa başlayır. Ə.Şərif tərcümə etdiyi əsərlərdə rus xalq dili ilə ədəbi dilimiz arasında yaxınlıq yaratmaq istəyir və buna nail olur.

Naxçıvan ədəbi mühiti nümayəndələrinin yaradıcılığındakı tərcümələr yüksək bədiiliyi, dil-üslub sənətkarlığı, oxunaqlılığı baxımından maraqlıdır. Bədii tərcümə bədii sənətdə qələm təcrübəsi olan, orijinalın dilini bilən, onu duyan, eyni zamanda öz ana dilinin bütün incəliklərinə bələd olan ədiblərimizin sayəsində daha oxunaqlı, daha cazibədar və maraqlı olur.

İstifadə edilmiş ədəbiyyat / *References*

1. Cəlil Məmmədquluzadə ensiklopediyası. (2008). Bakı, Şərq-Qərb. 320 s.
2. Həbibbəyli İ. (2008). Şahtaxtlı Məhəmməd ağa: taleyi və sənəti. Bakı, Nurlan. 166 s.
3. Həbibbəyli İ. (2017). Görkəmli yazıçı-publisist Eynəli bəy Sultanov. Məqalələr. Naxçıvan, «Əcəmi» Nəşriyyat -Poliqrafiya Birliyi. s.288.
4. Həşimli H. (2007). Əli Səbri, Bakı, Nurlan. 141 s.
5. Həşimli H. (2016). Unudulmuş tərcüməçi Ələkbər Qərib Naxçıvanlı. NDU, Elmi əsərlər, № 6 (74). s.3-9.
6. İbrahimov M. (1970). Ədəbi qeydlər. Bakı, Azərnəşr. 299 s.
7. Kazımova F. (2015). Əbədiyyətin və ədəbiyyatın Əziz Şərifi. Naxçıvan, «Əcəmi» Nəşriyyat -Poliqrafiya Birliyi. 160 s.
8. Qədimov Ə. (2010). XIX əsr Ordubad ədəbi mühiti. Ali məktəblər üçün dərslik. Bakı, ADPU nəşriyyatı. 546 s.
9. Maqsudov İ. (2016). Eynəli bəy Sultanov həyat və yaradıcılığı. Bakı, Elm və təhsil. 206 s.
10. Məmmədquluzadə C. (2004). Əsərləri. 4 cilddə, I cild. Bakı, Öndər nəşriyyat. 664 s.
11. Məmmədov N. (1965). Mənalı həyat yolu (Ə.Şərif-70). Bakı,17 aprel.
12. Möhtəmadi N. (1988). Yeni hədiyyə. «Ədəbiyyat və incəsənət». 29 yanvar.
13. Mustafayev Ə.(1967). İki şəkil tarixi. «Azərbaycan gəncləri». 4 iyun.
14. Novruzov Ş. (1988). «Şərqi-Rus»un çağırışı. Bakı, Yazıçı. 160 s.
15. Saraçlı M.(2007). Naxçıvan ədəbi mühitindən. BDU-nun filologiya fakültəsinin tələbələri üçün dərs vəsaiti. Bakı, 80 s.
16. Səmədova L. (1990). M.Y. Lermontovun – «Zəmanəmizin qəhrəmanı» romanının Azərbaycan dilinə tərcüməsi tarixindən. Tərcümə sənəti (məqalələr məcmuəsi). Bakı, Elm. 218 s.
17. Sultanov E. (2017). Məqalələr. Naxçıvan, «Əcəmi». 288 s.
18. Şahtaxtlı M. (2006). Seçilmiş əsərləri. Bakı, Çaşıoğlu. 432 s.
19. Şərif Ə. (1967). Söhbət ciddi oldu. «Ədəbiyyat və incəsənət», 20 may.
20. Şərif Ə.(1967). Bədii tərcümənin bəzi məsələlərinə dair. «Ədəbiyyat və incəsənət», 17 aprel.
21. Zeynalzadə A. (2006). Azərbaycan mətbuatı və çar senzurası (1850-1905). Bakı, Elm. 328 s.
22. http://smartfiction.ru/prose/work_death_and_disease/